# " Simurq Liseyi" Təhsil Kompleksi MMC Dil Siyasəti

Simurq Liseyi qayğıkeş beynəlxalq mühit təmin edir və mədəni müxtəlifliyi təşviq edir. Şagirdlər daimi öyrənməyə və qlobal cəmiyyətin məsuliyyətli üzvü olmağa təşviq edilərək akademik potensiallarını tam şəkildə inkişaf etdirirlər.

Simurq Liseyinin missiya bəyanatı dil siyasətimizin əsasını təşkil edir. Dil öyrənmənin və bilik əldə etmənin təməli olduğundan, bu siyasət məktəbin missiyasına nail olması yolunda əsas rol oynayır.

Simurq Liseyi Yerlı (azərbaycan və rus) və Beynəlxalq (ingilis) bölmələrdən ibarətdir. Liseyin Yerli bölmələrinə daxil olan siniflərdə tədris dili istiqamətdən asılı olaraq azərbaycan və ya rus dilidir.

Simurq Liseyinin beynəlxalq bölməsinə daxil olan siniflərdə tədris dili ingilis dilidir. Bununla belə, dil siyasəti şagirdlərin ana dilində sorğu aparmasına imkan verir və çoxdilliliyi təşviq edir. Dil siyasətinə əsasən, ev sahibi ölkənin (Azərbaycan Respublikasının) mədəniyyəti və dili ilə bağlı məlumatlılığı artırmaq məqsədi ilə, beynəlxalq bölmələrdə azərbaycan dili bütün səviyyələrdə tədris edilir.
Məktəbin hər bölməsində tədris olunan ana dili proqramı savadlılığı və mədəni kimliyi gücləndirir və yaşadığımız çoxdilli cəmiyyəti əks etdirir. Müasir xarici dillər proqramı digər mədəniyyətlərə anlayış və hörmət formalaşdırır.

Dil siyasəti idrak bacarıqlarının ana dildən ingilis dilinə və əksinə ötürülməsini, eləcə də əlavə dillərin mənimsənilməsini dəstəkləyir. Bu proses ali düşünmə bacarıqlarının və çoxperspektivli yanaşmanın inkişafını təşviq edir. Siyasət həmçinin bütün müəllimlərin müxtəlif dil mənimsəmə səviyyəsində olan şagirdlər üçün təlimi diferensiallaşdırmasının vacibliyini vurğulayır.

Dil siyasəti daimi öyrənməni dəstəkləyir. Dil öyrənmə bacarıqlarının inkişafı şagirdlərdə problemləri həll etmək, tənqidi düşünmək və yaradıcı şəkildə fəaliyyət göstərmək potensialı formalaşdırır. Dil şagirdlərin fikirləri, münasibətləri və hissləri anlamaq, şərh etmək və cavablandırmaq bacarıqlarını gücləndirir. İnformasiya savadlılığı və texnologiya həmçinin ömürboyu öyrənməyə və geniş dil öyrənmə imkanlarına çıxış yaradır.

## DİL SİYASƏTİNİN MƏQSƏDİ

Bu siyasət Simurq Liseyinin digər siyasətləri ilə uyğunluq təşkil edir. Bu sənəd məktəbin dil və akademik hədəflərini açıqlayır və şagirdlərin bu hədəflərə çatmasına kömək etmək üçün nəzərdə tutulmuş proqramı müəyyən edir.

Bu siyasət Simurq Liseyində dil öyrənmənin ümumi icmalını və rəhbər prinsiplərini təqdim edir və mədəni cəhətdən zəngin və müxtəlif mühitdə rastlaşdığımız real situasiyalara uyğun olaraq bütün məktəb kurikulumu boyunca tətbiq olunur.

Simurq Liseyində məqsədimiz şagirdlərdə üç dildə (Azərbaycan, Rus, İngilis) dəqiq, aydın, inamlı və yaradıcı şəkildə düşünmə və özlərini ifadə etmə bacarığını inkişaf etdirməkdir. Bir neçə dildə özünü ifadə etmə bacarığı şəxsi inkişafı sürətləndirir, idrak üstünlükləri təmin edir və beynəlxalq düşüncə tərzinin formalaşması üçün vacibdir. Biz bütün kurikulum boyu şagirdlərin mədəni və dil irsini inteqrasiya etməyə çalışırıq.

## DİL PROFİLİ VƏ QƏBUL SİYASƏTİ

### Simurq Liseyi Dil Profili

Simurq Liseyinin yerli bölmələrində şagirdlərin əsas tədris dili ilə parallel olaraq Azərbaycan bölmələrində ingilis və rus dilləri, Rus bölmələrində isə azərbaycan və ingilis dilləri tədris edilir.

Simurq Liseyinin beynəlxalq bölmələrində tədris dili ingilis dilidir. Şagirdlərin əksəriyyəti azərbaycanlıdır, lakin məktəbdə Rusiya, Böyük Britaniya, Pakistan, Hindistan, Fransa, İran, Türkiyə və digər ölkələrdən olan əcnəbi şagirdlər də təhsil alır. Beynəlxalq bölmələrdəki bütün inzibati və pedaqoji heyət İngilis dilində danışır.

### Qəbul Siyasəti

Preschool səviyyəsində müraciət edənlər İngilis bölməsi üçün danışdıqları ana dilində, Rus bölməsi üçün isə rus dilində şifahi testdən keçməlidirlər.

Həm Yerli, həm də Beynəlxalq bölmələrdə təhsil almaq üçün müraciət edənlər İngilis dili üzrə test verməlidirlər. Testin çətinlik səviyyəsi bölmədən asılı olaraq dəyişir.

| | Sənədin №: LEG-SL-PY/005 | Tarix: 10.02.2026 | Təftiş №00/Təftiş tarixi:- |
|---|---|---|---|
| | Document №: LEG-SL-PY/005 | Date: 10.02.2026 | Revision № Date : - |

**DİL PROQRAMLARINA ÜMUMİ BAXIŞ**

**A. Pedaqogika**

Biz qəbul edirik ki, bütün müəllimlər həm də dil müəllimləridir və onlar öz sinif və fənn dərslərində dilin şagirdlər tərəfindən mənimsənilməsini və kommunikasiya bacarıqlarını təşviq etməkdən məsuldurlar.

**B. Qiymətləndirmə**

Dil mənimsənilməsi müəyyən mərhələlərlə inkişaf etsə də, şagirdlərin mənimsəmə səviyyəsi fərqli olur. Buna görə də dil müəllimləri oxu, yazı, dinləmə və danışma bacarıqlarını müntəzəm olaraq qiymətləndirir, lazım gəldikdə əlavə yönləndirmə (scaffoldinq) və ya genişləndirmə tətbiq edirlər. Summativ və formativ qiymətləndirmələr dil inkişafı haqqında məlumat verir. Qiymətləndirmə meyarlarının daha ədalətli tətbiq edilməsi məqsədi ilə, dil müəllimləri şagird işlərini daim standartlaşdırırlar.

**C. Peşəkar İnkişaf**

Bütün müəllimlərin eyni zamanda dil müəllimi olmaları da gözlənildiyindən, inteqrasiya edilmiş dil təlimləri il boyu təşkil olunur. Xarici Dil müəllimlərinin İngilis dili üzrə C1/C2 səviyyəsinə çatması təşviq edilir. Məktəb bunun üçün təlim və imtahan imkanları yaradır. İngilis dili bilikləri **Performans İdarəetmə Siyasəti** əsasında da qiymətləndirilir.

**İngilis dili üzrə səviyyə fərqlərinin aradan qaldırılması**

Hər səviyyədə şagirdlər İngilis dilini öyrənirlər. Şagirdlərin mənimsəmə səviyyəsinin fərqli ola biləcəyini nəzərə alaraq və proqramdan geri qalan şagirdlərin digər şagirdlərə çatmasını təmin etmək məqsədi ilə siniflərin İngilis dili dərslərində səviyyəyə görə qruplara bölünməsi mümkündür.

**Bu siyasət hər il yenidən nəzərdən keçirilir.**

**"Simurq Liseyi" Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**